Ədalət .- 2025.- 26 dekabr (№49).- S.14.



***Arzu Nehrəmli,***
***Naxçıvan***

# TƏLƏSİRƏM

**Hələ də bilmirəm ömrün sonuna,**
**Mən niyə bu qədər çox tələsirəm.**
**Yaşamaq bu qədər əzablı imiş,**
**Yoxsa qalmamışdı vaxt tələsirəm.**

**Halədə içimdə nisgilim yatır,**
**Günəş avazıyıb , buludlar qatı.**
**Dördnala çapırdı nahaqqın atı,**
**Ortada qalmışdı haqq tələsirəm.**

**Bəlkə də bəndiydim himə, çatmışam,**
**Bəlkə də imana, dinə, çatmışam...**
**Arzuyam, yüyürüb sənə çatmışam,**
**Cənnət qapısına bax, tələsirəm.**

# SABAHIN XEYİR ÖMRÜM

**Sabahın xeyir, ömrüm!**
**Ayağı daşlı, başı savaşlı,**
**yaşından yaşlı ömrüm,**
**Coşqun, təlaşlı ömrüm.**

**Bir xoşbəxt qadının**
**şükründən ayağı yer alıb,**
**yaxasından tutub bərk-bərk,**
**Günü günə calamaqla edib ərk.**

**Qazandın, ömrüm!**
**Bir günün də mübarək!**
**Bu ötən səhərimdi,**
**gecən xeyirə qalsın!**
**Sabaha Allah kərimdir.**